# UĞURLARIMDA İMZASI OLAN ELÇİN İSGƏNDƏRZADƏ

Bir yazıçı kimi mən özümü çoximzalı kitaba bənzədərdim. Bu imzaların içində şair-alim, xeyriyyəçi Elçin İsgəndərzadənin xüsusi yeri var. Əgər mən ədəbi aləmdə görünürəmsə, bu uğurun başında Elçin imzası dayanır. O, mənim 15 kitabımı təmənnasız olaraq nəşr edib. Çoxları onun xeyirxahlığından bəhrələnib. Öndə isə rəssam-şair Adil Mirseyid, şəhid-şair Nizami Aydın və Qərib Mehdi yer alır. Mənim xarici ölkələr - Rusiya Federasiyası və Türkiyə tərəfindən ədəbi təltiflənməmdə E.İsgəndərzadənin təşəbbüskarlığı xüsusi rol oynayıb.



Qələm adamı olan Elçin Məktəb günündə - sentyabrın 16-da anadan olub. İllərin təkrarlanması indi onu mübarək 60 yaşına çatdırıb. Bu münasibətlə xeyirxahımı təbrik edir, ona bundan sonra da iti qələm, can sağlığı arzulayıram.

Şükür ki, Elçin böyük xoşbəxtliyin tamını taddı. Şuşada doğulan, ayrılıq həsrətini yaşayan şair 44 günlük tarixi qələbədən sonra Şuşasına da qovuşdu. Bu vüsal onu yeni yaradıcılıq uğurları qazanmağa ruhlandırdı. Yaradıcılığı Nazim Hikməti xatırladan Elçinin ədəbi məhsulları bir ahənrüba kiim həmişə məni cəzb etmişdir. Bir sıra yazılarımda onun qələminin sehrini çözməyə çalışmışam. Sonradan bu axtarışlar ”Elçin - el üçün” kitabımla nəticələnib.

Yolun yarısı qət edilib. Xeyirxah şairin xalqına, vətəninə, dövlətinə sevgisi böyük olduğu üçün oxucuları da onu sonsuz bir məhəbbətlə sevirlər. İnanıram ki, Tanrı bu sevgi xatirinə 60-ı daha bir 60-la mükafatlandırsa adına layiq bir iş görmüş olar.

Yubiley yaşın mübarək, dostum!

**Qərib MEHDİ**

Ədalət .- 2024.- 6 sentyabr (№34).- S.11.